Hüseynova S.U.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.38-51
UOT: 34: 343.2/.7

## Ekoloji cinayətlər: inkişaf tarixi və kriminoloji xüsusiyyətləri

**Xülasə:** Tədqiqat işində ekoloji cinayətlərə görə məsuliyyət müəyyən edən cinayət hüquq normalarından bəhs edilmiş, qanunvericilik sisteminin formalaşması tarixinə ekskurs edilmişdir. Bununla da müəyyən olunmuşdur ki, ekoloji cinayət kimi təhlükəli bir kriminal təzahürlə mübarizədə cinayət qanunvericiliyi mürəkkəb və çətin bir yol keçmişdir. Məlum olmuşdur ki, əvvəlki cinayət qanunvericilikləri ilə müqayisədə 01 sentyabr 2000-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsində ekoloji cinayətlərlə bağlı olan kriminal təzahürlərə görə mükəmməl tərkiblər müəyyənləşdirilmişdir.

Eyni zamanda, Cinayət Məcəlləsi ilə yanaşı müxtəlif, o cümlədən, ekoloji cinayətlərə görə cinayət məsuliyyətini nəzərdə tutan başqa qanunvericilik aktları da araşdırmaya cəlb olunmuşdur.

Tədqiqat işində əsasən ekoloji cinayətin kriminoloji xüsusiyyətləri, onun kəmiyyət göstəricilərinin tendensiyası, habelə müasir mərhələdə keyfiyyət vəziyyəti nəzərdən keçirilmişdir. Ekoloji cinayətləri doğuran səbəb və şərait və onun profilaktikası, bu cinayətləri törətmiş şəxslərin kriminoloji xarakteristikası tədqiq edilmişdir. Burada cinayətin səbəb və şəraiti haqqında, cinayətkarın şəxsiyyəti, şəxsiyyətin demoqrafik, psixoloji xüsusiyyətləri ətrafında kifayət qədər aydın fikirlər səsləndirilmişdir.

**Açar sözlər:** ekoloji cinayətlər, kriminoloji xarakteristika, cinayətkarın şəxsiyyəti, latent cinayətkarlıq, ekoloji təhlükəsizlik, ətraf mühitin mühafizəsi, ictimai təhlükəli əməl, qanunvericilik aktları, ekoloji məsuliyyət, prosessual ekoloji hüquq münasibətləri

Huseynova S.U.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.38-51
UDC: 34: 343.2/.7

## Environmental crimes: history of development and criminology characteristics

**Abstract:** The criminal law norms determining responsibility for the environmental crimes were discussed, and the history of the formation of the legislative system was explored in the research work. It has been determined that the criminal legislation has gone through a complex and difficult path in the fight against such a dangerous criminal phenomenon as environmental crime. It was confirmed that in comparison with the previous criminal legislations, the Criminal Code of the

♦ **Hüseynova Sevinc Usub qızı -** AMEA Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elektron xidmətlər şöbəsinin müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent (Azərbaycan). E-mail: sevhuseyn@yahoo.com

♦ **Huseynova Sevinj Usub** - Head of the Electronic Services Department at the Institute of Oriental Studies named after Z.M. Bunyadov of the Azerbaijan National Academy of Sciences (ANAS), PhD in Law, Associate Professor (Azerbaijan). E-mail: sevhuseyn@yahoo.com

Republic of Azerbaijan, adopted on September 1, 2000, defined perfect components for the criminal manifestations related to environmental crimes.

At the same time, in addition to the Criminal Code, other legislative acts, including criminal responsibility for environmental crimes, were also reflected in the study.

The criminological characteristics of environmental crime, the trend of its quantitative indicators, as well as the qualitative situation at the modern stage were considered in the research work. The causes and conditions of environmental crimes and their prevention, as well as the criminological characteristics of those who committed these crimes, were studied. Quite clear opinions about the causes and circumstances of the crime, personality of the criminal, demographic and psychological characteristics of the personality have been expressed here.

**Keywords:** environmental crimes, criminological characteristics, identity of the criminal, latent criminality, environmental security, environmental protection, socially dangerous act, legislative acts, environmental responsibility, procedural environmental legal relations.

Azərbaycan Respublikası Konstitusiyasının "Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlı 39-cu maddəsi konstitusion norma olaraq ekoloji sahənin tənzimi üzrə ən yüksək hüquqi qüvvəyə malilkdir. Həmin maddədə qeyd edilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir [1].

İlk növbədə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında ekoloji cinayətlər və onunla bağlı kriminal əməllərə görə məsuliyyət müəyyən edən qanunvericilik sisteminin formalaşması sovet hakimiyyətinin qurulduğu illərə təsadüf edir.

Azərbaycan dövlətinin həmin dövrdə olan inkişaf mərhələsində ətraf mühitin mühafizəsinə dair hüququn təsirinin hər hansı mexanizmlərinin mövcud olmamasına baxmayaraq, cinayət qanunvericiliyinin kodifikasiya edilməsi zərurəti yaranmışdır. Belə bir cəhd 1920-ci ildə "Azərbaycan SSR-nin cinayət hüququnun əsas müddəaları" adlı sənəddə göstərilmişdir. Bu sənəddə ilk dəfə olaraq cinayət hüququnun ümumi hissəsinin ən mühüm normaları ifadə edilmiş, eləcə də onun müvafiq institutlarını ümumiləşdirməyə cəhd göstərilmiş və xüsusən, ilk dəfə olaraq cinayət anlayışının ümumi maddi tərifi verilmişdir [6, s. 7-8].

1922-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin "Təsərrüfat cinayətləri" adlı IV Fəslində 126-141 maddələrtəsbit olunmuşdur.

Bu Fəsildə 7 iyun 1924-cü il, 17 yanvar 1925-ci il, 20 fevral 1926-cı il, 6 mart 1926-cı il, 17 iyul 1926-cı il, 12 fevral 1927-ci il, 28 sentyabr 1927-ci il tarixli Qərarlarla və 17 noyabr 1923-cü il Dekretlə bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş, bəzi maddələr yeni redaksiyada verilmişdir [4, s. 90-96].

1924-cü ildə "SSR İttifaqının və müttəfiq Respublikaların cinayət qanunvericiliyinin əsasları" adlı sənədin qəbul edilməsi Azərbaycanın cinayət qanunvericiliyinin inkişafına mühüm təsir göstərmişdir [6, s.8].

RSFSR-in 1926-cı il tarixli Cinayət Məcəlləsi ümumittifaq cinayət qanunvericiliyi əsasında hazırlanmış ilk Cinayət Məcəlləsi və sovet cinayət qanunvericiliyinin inkişafında yeni mühüm mərhələ olmuşdur. Məlum olduğu kimi, bu Məcəllənin müddəalarının çoxu sonradan 1927-1935-ci

illərdə nəşr edilmiş digər müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in Cinayət Məcəlləsində də nəzərə alınaraq öz əksini tapmışdır.

Azərbaycan SSR-in Cinayət Məcəlləsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 3 dekabr 1927-ci il tarixli qərarı ilə təsdiq edilmiş və 15 yanvar 1928-cii il tarixdə qüvvəyə minmişdir. İstər bu məcəllələrin, istərsə də digər müttəfiq respublikaların cinayət məcəllələrinin qəbul edilməsi sovet cinayət qanunvericiliyinin inkişafında növbəti mərhələ kimi qiymətləndirilir və nisbətən uzun müddət – 1 yanvar 1961-ci ilə qədər qüvvədə olmuşdur. Həmin tarixdə yeni məcəllələr qüvvəyə minmişdir [6, s. 8-9].

1927-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin Xüsusi hissəsinin V fəslində 163-170-ci maddələr yer alırdı.

Bu Məcəllədə də sözü gedən fəsildə 1928-ci il 7 aprel, 1928-ci il 23 iyun, 1928-ci il 15 dekabr, 1929-cu il 24 avqust, 1930-cu il 3 fevral, 1930-cu il 23 fevral, 1931-ci il 2 aprel, 1933-cü il 10 avqust, 1934-cü il 15 mart, 1936-cı il 22 avqust, 1936-cı il 29 dekabr, 1937-ci il 2 avqust tarixli Qərarlarla bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş, bəzi maddələr yeni redaksiyada verilmişdir [4, s. 195-199].

Azərbaycan SSR-in Cinayət Məcəlləsinin hüquqi qüvvəyə minməsi ekoloji cinayətlərə dair Azərbaycanın cinayət qanunvericiliyinin inkişafı tarixində mühüm amil olmuşdur. Növbəti Cinayət Məcəlləsi Azərbaycan SSR-in 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 mart 1961-ci il tarixdən qüvvəyə minmişdir.

Məcəllənin ilkin redaksiyasında ətraf mühitin mühafizəsinə dair konkret normaların olmamasına baxmayaraq, bir sıra maddələr (maddələr 151-166 – "Təsərrüfat cinayətləri") geniş mənada şərh edildikdə onlar təbii resurslara dair qanunvericiliyin müxtəlif problemlərinə toxunurdu [6, s. 10].

Azərbaycan Respublikasının sonuncu Cinayət Məcəlləsi qəbul edilənə qədər müxtəlif illərdə Azərbaycan SSR-in əvvəlki Cinayət Məcəlləsinin "Təsərrüfat cinayətləri" adlanan 6-cı fəslində ekoloji cinayətlərin tərkibinə aid tövsifedici əlamətlərin daxil edilməsi ilə müəyyən əlavələr və dəyişikliklər edilmişdir (məsələn, maddə 158-1. "Azərbaycan Respublikasının sahilyanı şelf haqqında qanunlarını pozma", maddə 159. "Qanunsuz olaraq balıq tutma və ya sudan başqa şeylər tutma peşəsi ilə məşğul olma" və xüsusən 160-cı maddə "Sututarları və havanı çirkləndirmə"). Həmin əlavələr və dəyişikliklər ətraf mühitin mühafizəsi sahəsində cinayət qanunvericiliyinin inkişaf etməsini göstərmişdir [6, s. 11-12].

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsinin VI Fəsli – "Təsərrüfat cinayətləri" 151-166-cı maddələri əhatə edirdi.

Bu fəsildə 1964-cü il 13 may, 1975-ci il 27 avqust, 1979-cu il 26 fevral, 1982-ci il 22 dekabr, 1986-cı il 16 iyun, 1992-ci il 18 avqust, 1995-ci il 4 aprel, 1995-ci il 12 sentyabr tarixli Qərar və Fərmanlarla bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş və bəzi maddələr yeni redaksiyada verilmişdir [4, s. 714-736].

Milli cinayət qanunvericiliyinin inkişaf tarixi bunu da söyləməyə imkan verir ki, ətraf mühitin mühafizəsi sahəsində hüququn tətbiq edilməsi təbiəti mühafizə və qanunvericiliyin digər sahələri ilə müəyyən edilmiş xüsusi formada həyata keçirilən dövlət hakimiyyət fəaliyyətidir. Bu fəaliyyət dövlətin müvafiq səlahiyyətli orqanları və ictimai təşkilatlar tərəfindən həyata keçirilmiş müvafiq şəxslərin hərəkətlərinə nəzarətin həyata keçirilməsindən və təbiəti mühafizə qaydalarının tələblərinə əməl etmələrindən, eləcə də həmin qaydaları pozan subyektlər barəsində dövlət tərəfindən məcburi tədbirlərin tətbiq edilməsindən və icrasının təmin olunmasından ibarət olmuşdur.

Yuxarıda qeyd edilənlərdən məlum olur ki, ekoloji cinayətlərlə səmərəli mübarizəni təmin etmək üçün ölkəmizin cinayət qanunvericiliyi müəyyən təkamül yolu keçmişdir.

Xüsusi olaraq qeyd edək ki, yeni Cinayət Məcəlləsinin strukturu əhəmiyyətli modifikasiyaya məruz qaldı və hazırda onlar təkcə fəsillərə deyil, həm də bir neçə fəsli birləşdirən bölmələrə ayrıldı. Buna səbəb odur ki, müasir dünyada cinayət hüquqi müdafiə məsələlərinin əksəriyyəti xeyli müərkkəbləşmiş və daha müfəssəl işlənib hazırlanmışdır.

Ümumiyyətlə, əvvəlki cinayət qanunvericilikləri ilə müqayisədə Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixdə qəbul edilmiş Cinayət Məcəllləsində ekoloji cinayətlərlə bağlı olan kriminal təzahürlərə görə mükəmməl tərkiblər müəyyənləşdirilmişdir. Sözü gedən Cinayət Məcəlləsində Ekoloji cinayətlər ayrıca 28-ci fəsildə yer almışdır. Həmin fəslə 15 ekoloji cinayət hüquq norması (maddə 248-261) daxil edilmişdir. Nümunə olaraq qeyd edək: Maddə 247. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma; Maddə 248. Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma; Maddə 249. Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma; Maddə 250. Suyu (su mənbələrini) çirkləndirmə; Maddə 251. Atmosferi (havanı) çirkləndirmə və s. [2].

Təbiəti mühafizə fəaliyyətində hüququn tətbiq edilməsinin əsasını qüvvədə olan cinayət qanunvericiliyinin normaları təşkil etmişdir. Qanunun tələblərinə müvafiq olaraq təbiətin mühafizəsi sahəsində hüququn tətbiqi məhkəmə, prokurorluq, daxili işlər orqanları, təbiəti mühafizə müfəttişlikləri, dövlət nəzarəti və idarəetmə orqanları tərəfindən həyata keçirilmişdir [6, s. 21-22].

Beləliklə, yeni Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar Azərbaycanın milli cinayət qanunvericiliyinin ən yeni inkişaf tarixi ekoloji cinayətlərə qarşı mübarizədə müasir və təsirli cinayət hüquq vasitələri və mexanizmləri əldə etmişdir.

Məlumdur ki, Cinayət Məcəlləsi ilə yanaşı müxtəlif, o cümlədən, ekoloji cinayətlərə görə cinayət məsuliyyətini nəzərdə tutan başqa qanunvericilik aktları da mövcuddur. İlk növbədə onu qeyd edək ki, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 08 iyun 1999-cu il № 678-IQ nömrəli Qanunu qəbul edilmişdir. Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 08 iyun 1999-cu il tarixli 678-IQ nömrəli Qanunun 8-ci fəsli "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət, mübahisələrin həlli" adlanır. "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət" adlanan 78-ci maddədə deyilir: "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən, vəzifəli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət Məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar" [20].

29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunla Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilmişdir. Məcəllənin 25-ci fəsli Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar adlanır və bu fəsildə 42 maddə yer almışdır (maddə 233-275) [21].

Həmçinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 12 iyun 2018-ci il 1175-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Eyni zamanda sözügedən Qanuna

əlavə, yəni Ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin Siyahısı da təsdiq edilmişdir [18].

Daha sonra Azərbaycan Respublikası Prezidentinin 05 iyul 2018-ci il, 163 nömrəli Fərmanı ilə "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun tətbiqi haqqında Qanun təsdiq edilmişdir [19].

Həmçinin, "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişiklik edilməsi barədə 24 aprel 2020-ci il 55-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu da təsdiq edilmişdir.

Ətraf mühitin mühafizəsi qaydaları "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının eyni tarixli Qanununda, "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının "Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Meşə Məcəlləsində, Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsində və digət qanunvericilik aktlarında da nəzərdə tutulmuşdur [3, 384].

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1396 nömrəli Sərəncamı ilə "Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər" təsdiq edilmişdir. Belə ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra ətraf mühitin mühafizəsi sahəsində bir çox beynəlxalq konvensiyalara və sazişlərə qoşulmuş, bununla bağlı üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atmışdır. Son illər bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, birgə layihələr hazırlanaraq həyata keçirilmiş, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılmış, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və faunanın qorunub saxlanılması məqsədilə milli parklar, dövlət təbiət qoruqları və dövlət təbiət yasaqlıqları yaradılmışdır. Bununla yanaşı, beynəlxalq konvensiyalardan və sazişlərdən irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsini təmin etmək üçün müvafiq dövlət orqanlarının səylərinin artırılması və bu sahədə işlərin daha da gücləndirilməsi zərurəti var [24].

Bu gün ekoloji problemlər qlobal beynəlxalq xarakter alır, çünki ətraf mühitin müxtəlif çirklənmə növləri tez-tez geniş transkontinental məkanlara yayılır. Beynəlxalq ekoloji siyasətin uğurla həyata keçirilməsi baxımından elmi-texniki və iqtisadi əməkdaşlıq çox mühüm rol oynayır. Lakin bu sahədə beynəlxalq tədbirlərin səmərəliliyi daha çox hüquqi tənzimləmənin qüsursuzluğundan asılıdır ki, bu da öz növbəsində müəyyən dərəcədə qanunvericiliyin daxili konstruksiyasından asılıdır [17, s. 258].

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında çoxsaylı islahatlar illər üzrə mütamadi olaraq həyata keçirilmişdir.Belə ki, Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Sərəncama əsasən, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq,

ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir (25).

22 iyul 2022-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulmuş Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji başlığı altında bu gün və gələcək üçün önəmli islahatlar proqramı və proqnozlar öz əksini tapmışdır

Strategiyaya əsasən, ətraf mühitə dost sənayeləşmə təşviq ediləcək, bu məqsədlə tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdiriləcəkdir. Hidrometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sistemi müasirləşdiriləcəkdir. Bioloji müxtəlifliyin qorunması, su bioresurslarının artırılması və akvakulturanın inkişafı təmin olunacaq, meşə ilə örtülü ərazilərin və yaşıllıqların mühafizəsi gücləndiriləcəkdir [26].

Beləliklə, ekoloji tarazlığın qorunması ümumbəşəri bir məsələ olmaqla, həm bu gün, həm də gələcək nəsillər qarşısında duran prioritet və təxirəsalınmaz məsələdir.

Ekoloji cinayət cinayət fəaliyyətinin daim inkişaf edən formasıdır. Bu, müasir cəmiyyətimizin əsas maraqlarına qəsd edilməsinin ağır forması hesab edilməlidir.

Əsasən, son illərdə ekologiyanın hüdudları həddindən artıq genişlənmişdir. Ekoloji cinayətlərin ictimai təhlükəliliyi ayrı-ayrı zərərli nəticələrin, ekoloji və iqtisadi zərərlərin, həmçinin adamların sağlamlığına edilən qəsdlərin məcmusuna aid deyildir. Əslində onların hər biri ictimai təhlükəliliyin elementləridir, tərkib hissəsidir. Bütün bunlarla yanaşı ictimai təhlükəlilik birləşdirici keyfiyyət və kəmiyyət xarakteristikasına malikdir.

Ekoloji cinayətlərin ictimai təhlükəliliyinin kəmiyyət xarakteristikası onun ictimai təhlükəlilik dərəcəsi ilə ifadə olunur. Həm qanunvericilik sanksiyalarında, həm də əmələ görə məsuliyyətin məzmununda ekoloji cinayətlərin ictimai təhlükəliliyinin dərəcəsinin müəyyən edilməsinin kriteriyası vurulan zərərin ölçüsü ilə (heyvanların kütləvi məhv edilməsi, radioaktiv fonun köklü surətdə dəyişməsi, epidemiyaların yayılması və s. zərərlər), müxtəlif ixtisaslaşmış əlamətlərin məcmusu ilə və ətraf mühitin obyektlərinin sosial dəyərlərinin aşağı salınmasının digər məsuliyyət parametrləri ilə ifadə olunur.

Ekoloji hüquqpozmanın ictimai təhlükəlilik dərəcəsi nəzərə alınmaqla iki növə – xəta və cinayət deyilən növlərə bölünür. Birinci, ikinci ilə müqayisədə ictimai təhlükəlilik nöqteyi-nəzərdən daha az təhlükəlidir, intizam, maddi, inzibati və mülki hüquqpozmalar sırasına daxildir. Ekoloji hüquqpozma növlərinə müvafiq olaraq intizam, maddi, inzibati, mülki və cinayət məsuliyyət növləri fərqləndirilir [5; 24].

Azərbaycan Respublikası CM-ni 7-ci maddəsində göstərilir ki, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər [2].

Kriminal hüquqi fakt olmadan cinayət məsuliyyəti ola bilməz. Yəni faktın ictimai təhlükəli əməl kimi, cinayət kimi qiymətləndirilməsi isə yalnız cinayət tərkibi ilə müəyyənləşdirilə bilər. Cinayət tərkibi anlayışı cinayət qanunvericiliyində birbaşa nəzərdə tutulmuşdur. Azərbaycan

Respublikası Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Onu da vurğulayaq ki, hər bir suveren dövlətin ekoloji təhlükəsizliyi təkcə dövlət üçün deyil, həm də cəmiyyət üçün birinci dərəcəli obyektdir, çünki neqativ ekoloji vəziyyət, o cümlədən millətin genetik fondu üçün də çox böyük təhlükədir. Buna görə də təsadüfi deyildir ki, dövlətlər ətraf təbii mühitin mühafizəsi sahəsində qarşıya çıxan xüsusi məsələləri tənzimləyən müvafiq normativ aktların qəbul edilməsi praktikasından istifadə edirlər. Bu cür praktika bütün təbii komponentlərə şamil edilir. Bunu "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" 24 mart 2000-ci il tarixli 840-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu da təsdiq edir. Bu Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir [22].

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə 15 iyul 2000-ci il tarixli 366 nömrəli qərar qəbul edilmişdir [20].

Ətraf mühitə vurulan zərər nəticə etibarilə bilavasitə insanın sağlamlığına vurulan zərərə bərabər tutulur. Ekoloji cinayətlərin predmetindən, ekoloji qaydalar və sosial ekoloji təhlükəsizlikdən fərqli olaraq, ekoloji cinayətin obyekti, qanun tərəfindən qorunan təbii obyektlər və təbii komplekslər, eləcə də bütövlükdə ətraf mühitdir.

Zənnimizcə, ekoloji hüquq pozuntuları ilə mübarizədə ilk növbədə həm mülki-hüquq, həm də inzibati-hüquq təsir tədbirlərindən səmərəli istifadə edilməlidir. Lakin obyektiv gerçəklik göstərir ki, ekoloji hüquq pozuntularının ictimai təhlükəliliyinin artması həmin təsir tədbirləri ilə yanaşı, cinayət-hüquq tədbirlərindən də istifadə olunmasını şərtləndirir [8, s. 63].

Beləliklə, müxtəlif ekoloji cinayətlərə qarşı ardıcıl mübarizənin aparılması cəmiyyətin və dövlətin normal fəaliyyəti üçün zəruridir. Müasir texnika və texnologiyaların yaranması ilə əlaqədar olan elmi-texniki tərəqqi bəzən neqativ nəticələrə və insan tərəfindən təbiətə ekoloji ziyanın vurulmasına gətirib çıxarır, habelə bəşəriyyətin mövcudluğunun bioloji əsası üçün təhlükəli həddə çatdırır. Buna görə də ekoloji vəziyyətin kəskinləşməsi şəraitində ekoloji cinayətlərə qarşı mübarizə yüksək aktuallığını saxlayır və ətraf mühitin qorunması üçün hüquqi vasitələrin, o cümlədən, cinayət hüquq vasitələrinin gücləndirilməsini zəruri edir.

Ekoloji cinayətlərə qarşı mübarizə qanunlar, onların müvafiq qanunvericilik aktları əsasında və çərçivəsində həyata keçirilir. Onlar ekoloji cinayətlərin qarşısının alınmasına yönəlmiş tədbirlərin alqoritmini ətraflı şəkildə müəyyən edir, hüquqmühafizə və ekoloji qurumlar üçün zəruri göstərişləri, ekoloji təhlükəsizlik tədbirlərinin təmin edilməsinə yönəlmiş prioritet tədbirlərin həyata keçirilməsi üçün təlimatları ehtiva edir. Onlar ekoloji cinayət əlamətləri olan müəyyən edilmiş faktlar üzrə materialların polis və prokurorluq orqanlarına verilməsi qaydasını müəyyən edirlər.

Ekoloji cinayətlərə qarşı mübarizənin səmərəliliyinin artırılmasının mühüm şərtlərindən biri ətraf mühitin mühafizəsi üzrə qanunvericilik bazasının daim təkmilləşdirilməsidir. Bu istiqamətdə bir çox qanunvericilik işləri aparılır, qanunvericilik və icra hakimiyyəti orqanlarının, respublika və regional səviyyəli ictimai birliklərin, elm adamlarının və sahibkarların səylərini birləşdirmək üçün tədbirlər görülür. Bu cinayətlərlə mübarizəyə kömək edə biləcək yeni normativ hüquqi aktlar təsdiq olunur.

Eyni zamanda, ekoloji cinayətlərin qarşısının alınması üçün elm və texnikanın ən son nailiyyətlərindən istifadənin intensivləşdirilməsi zərurəti ilə əlaqədar yeni ixtisaslaşdırılmış elmi kriminoloji sahənin – ekoloji kriminologiyanın formalaşdırılması və inkişafı mühüm tədbir ola bilər.

Ekoloji kriminologiya ekologiya sahəsində sosial təcrübələri və sosial münasibətləri araşdırmalı, onların xüsusiyyətlərini, ekoloji cinayətlərin törədilməsinə şərait yaradan səbəbləri və şərtləri öyrənməli, onlara qarşı mübarizə və mübarizə tədbirləri üzrə tövsiyələr hazırlamalıdır. Ekoloji vəziyyətin pisləşməsi şəraitində ekoloji qanunvericiliyin norma və tələblərinin dövlət tərəfindən icrasının gücləndirilməsi, dövlət ekoloji nəzarətinin (o cümlədən monitorinqin) gücləndirilməsi, ekoloji cinayətlərə görə məsuliyyətin artırılması həyati əhəmiyyət kəsb edir.

Ekologiya sahəsində bu problemlərin ən yüksək səviyyədə həllində müxtəlif dövlət orqanlarının qarşılıqlı fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Ekoloji cinayətlərə qarşı mübarizənin möhkəm hüquqi bazası olmalıdır. Məsələn, xüsusi dövlət qanunları ekoloji sahədə qanun pozuntularına, onların aşkar edilməsi və qarşısının alınmasının xüsusiyyətlərinə görə fiziki və hüquqi şəxslərin məsuliyyətinin artırılması ilə bağlı bütün zəruri müddəaları hərtərəfli tənzimləyə bilər. Ekoloji cinayətlərin qarşısının alınması cəmiyyətin və dövlətin qarşısında duran təxirəsalınmaz vəzifədir. Hüquqmühafizə orqanlarının əsas vəzifəsi, ilk növbədə, təbiətin rasional idarə edilməsini və ətraf mühitin səmərəli mühafizəsini təmin etməkdir.

Hansı sahədə yaranmasından asılı olmayaraq ekoloji hüquq münasibətləri maddi və prosessual hüquq münasibətlərinə bölünür. Maddi ekoloji hüquq münasibətləri ekoloji hüquq mühafizəsi altında olan konkret maddi obyektlərin hesabına formalaşır.

Ekoloji cinayətlərin kriminalistik xarakteristikası təbiəti mühafizə qaydalarının pozulması zamanı tipik izlərin yaranması, baş vermiş cinayətin tipik nəticələri, təqsirli şəxslərin ehtimal dairəsi, cinayətin törədilməsinin tipik səbəb və şəraitləri, onların aradan qaldırılmasının xüsusiyyətlərinə görə fərqlənir.

Bu cinayətlərin subyekti 16 yaşına çatmış həm vəzifəli, həm də fiziki şəxs (ümumi və xüsusi subyekt) ola bilər.

Cəmiyyətin rəsmi reaksiyasından kənarda qalan latent cinayətkarlıq kortəbii və çox təhlükəli proses kimi inkişaf edir. Onun cəmiyyət üçün zəruriliyi, həm də bundan ibarətdir ki, latent cinayətkarlıq qanunun pozulmasının və onun doğurduğu nəticələrin məhsuludur: məsuliyyətin labüdlüyü prinsipinin pozulması cəzasızlığa gətirib çıxarır, bu isə yeni cinayətlər törədilməsinə stimul yaradır; cinayətkarlığın mövcud olması vətəndaşlarda hüquqmühafizə orqanlarının fəaliyyətinin səmərəli olmasına şübhə oyadır, bütün hallarda cinayətkarlığı aşkar etməyin və təqsirkar şəxslərin məsuliyyətə cəlb etməyin mümkünlüyünə inamsızlıq yaranmasına, bu sahədə vəziyyətin düzgün qiymətləndirilməməsinə gətirib çıxarır [12, s. 30-31].

Kriminologiyada latentliyin üç səviyyəsi fərqləndirilir; aşağı, orta və yüksək səviyyə. Qeydə alınmış cinayətkarlığın gizli xarakteri onun göstəricilərini etibarlı şəkidə təqdim etməyə imkan vermir. Bu cür cinayətlər barədə məlumat seçmə araşdırmalar nəticəsində əldə edilir. Məsələn, hüquqmühafizə və təbiətmühafizə orqanlarının işçilərindən ibarət 50 nəfər mütəxəssis tərəfindən aparılmış ekspert sorğusunun nəticələri göstərir ki, suların çirkləndirilməsi ilə bağlı cinayətlərin 95-98%-i latent cinayətlərdir. Bu, cinayətlərin həmin növünün yüksək dərəcədə latent olmasını sübut edir. Qeyd etmək lazımdır ki, göstərilmiş məlumatlar həmin sahədə cinayətkarlığın vəziyyətindən daha çox məhkəmə-istintaq orqanlarının, bütövlükdə ədliyyə sisteminin həmin cinayətlərə qarşı

mübarizəsi barədə göstəricilərdir. Əlbəttə, bu cür məlumatların da kifayət qədər böyük elmi əhəmiyyəti var, çünki onlar cinayət siyasətinin bu istiqamətinin vəziyyətini, intensivliyini və imkanlarini əks etdirir, bu sahədə təkmilləşdirmənin məqsədlərini və yollarini göstərir [14, s. 73].

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Cinayətkarlıq və hüquqpozmlarla əlaqəli məlumalar məcmuəsində ekoloji cinayətlər üzrə Azərbaycan Respublikasının hüquq mühafizə sisteminin fəaliyyətinin nəticələrini əvvəlki illərlə müqayisəli şəkildə xarakterizə edən əsas göstəricilər dərc edilmişdir: 2005 – 123; 2010 – 153; 2015 – 130; 2020 – 185; 2023 – 308; 2024 – 275. 2005 – 123; 2010 – 153; 2015 – 130; 2020 – 185; 2023 – 308; 2024 – 275 [23].

Ekoloji cinayətkarlığın, o cümlədən suların çirkləndirilməsi sahəsində cinayətkarlığın bir xüsusiyyəti də ondan ibarət hesab edilə bilər ki, bu cinayətlər, müəyyən mənada, təbiətdən normal istifadə edilməsi prosesinin davamıdır. Cəmiyyət təbii ehtiyatlardan istifadə edərkən ətraf mühitə bu və ya digər şəkildə neqativ təsir göstərir. Bu cür fəaliyyət o halda qanuna zidd olur ki, o, təhlükəli metodlarla həyata keçirilsin və müəyyən edilmiş limitlər və normativlər həddini aşsın [13, s. 378-379].

Onu da qeyd edək ki, kriminologiyanın predmetinə daxil olan elementlərdən biri də cinayətkarın şəxsiyyətidir. Cinayətkarın şəxsiyyəti qanunla cinayət sayılan əməli törətməkdə təqsirli olan şəxsi xarakterizə edən və onun kriminal davranışına təsir göstərən sosial əhəmiyyətli xüsusiyyətlərin, əlamətlərin, əlaqələrin münasibətlərinin məcmusudur [7, 12].

Cinayətkarın şəxsiyyəti neqativ sosial əhəmiyyətli xüsusiyyətlərinin məcmusunu ifadə edən, habelə xarici mühitin şərait və amilləri ilə əlaqəli şəkildə kriminal davranışın xarakterinə təsir göstərən, törədilən cinayətdə təzahür edən cəmiyyətəzidd yönəlişə malik cinayət törədən şəxsin sosial-psixoloji tərəfidir. Verilən tərifdə cinayətkarın şəxsiyyəti anlayışının ümumsosial və cinayət-hüquqi məzmunu arasında qarşılıqlı əlaqə əks olunur.

Cinayətkarın şəxsiyyətinin quruluşunda aşağıdakı əlamətlər fərqləndirilir: biofizioloji, sosial-demoqrafik, psixoloji, mənəvi, sosial rollar, cinayət-hüquqi və kriminoloji əlamətlər [10, s.73].

Kriminologiyada cinayətkarın şəxsiyyətinin öyrənilməsinin müxtəlif istiqamətləri vardır. Belə ki, italiyalı psixiatr alim Çezare Lombrozo antropoloji təlimi cinayətkarlığın səbəblərini cinayətkarın şəxsiyyəti və onun bioloji təbiətlə əlaqələndirirdi. Müəllifin fikrincə, cinayətkarın şəxsiyyətini, onun xüsusiyyətlərini öyrənməklə cinayətkarlığın səbəblərinə aydınlıq gətirmək olar. Ç.Lombrozo qeyd edirdi ki, hər bir cinayətkar özünün anatomik, fizioloji və psixoloji xüsusiyyətlərinin təsiri altında kriminal əməli törədir. Cinayət törədən şəxsdə kriminogen vərdişlər formalaşmır, o, cinayətkar kimi doğulur [11, s. 642-643].

İ.Rəhimov isə haqlı olaraq göstərmişdir ki, insanın cinayətkar davranışının səbəblərini onun genetik, irsiyyət xarakterli olmayan psixofizioloji xüsusiyyətlərində axtarmaq lazımdır. Onlar xarici mühitin müəyyən şəraitinin və vəziyyətinin təsiri altında təzahür edir. Bunun da nəticəsində insan öz azad istəyi ilə bu və ya digər qərarı qəbul edir. Buna görə nə cəmiyyətin sosial şəraiti, nə iqtisadi faktlar (dilənçilik, yoxsulluq, zənginlik, dəbdəbə), nə də ələlxüsus irsiyyət cinayətin səbəbləri kimi çıxış edə bilməz. Cinayətin mənbəyi mənfi xarici sosial-iqtisadi şəraitin və vəziyyətin təsiri nəticəsində yaranan şəxsiyyətin psixofizioloji xüsusiyyətlərindədir [9, s. 122].

Konkret cinayətin səbəb və şəraitinin anlayışına qanuna riayət edən adamların davranışı üçün xarakterik olmayan, lakin cinayətkarlar üçün tipik olan şəxsiyyətin püxtələşməsi xüsusiyyətləri, onların sosial psixoloji statusu, fəaliyyəti və bunları formalaşdıran obyektiv xarici mühitin kompleks mövcud halları daxildir.

Ekoloji cinayətlərlərin törədilməsinə şərait yaradan halların aradan qaldırılması mahiyyət etibarilə ondan ibarətdir ki, bu sahədə lazımi qayda yaradılsın, qanunlarda, təlimatlarda və digər normativ aktlarda mövcud olan tələblərin yerinə yetirilməsi təmin edilsin.

Kriminoloji tədqiqatların vəzifələrindən biri də bu cür şərtləri üzə çıxarmaqdan və onları ləğv etmək və ya neytrallaşdırmaq üçün konkret tədbirlər müəyyənləşdirməkdən ibarətdir.

Tədqiq edilən cinayətlərin qarşısının alınması və profilaktikası ilə bağlı işlərdə ümumi ekoloji tədbirlər də nəzərə alınmalı və istər bütövlükdə ətraf təbii mühitin ümumi təmizliyinin təmin edilməsi və ayrı-ayrı obyektlərə, xüsusən su tutarlardakı balıq ehtiyatlarına ziyan vurulmaması üçün də tədbirlər görülməlidir.

Ekoloji cinayətkarlığa qarşı mübarizənin spesifikası ondan ibarətdir ki, Azərbaycanda ekoloji qanunçuluğun və hüquqi qaydanın möhkəmləndirilməsi üçün bütün hüquqmühafizə, nəzarət və təbiətimühafizə orqanlarının fəal və dürüst əlaqələndirilmiş işləri daim təmin edilməlidir.

Şəxsiyyətin, cəmiyyətin, dövlətin qanuni ekoloji hüquq və mənafelərinin qorunması üçün qüvvə və vəsaitlərin birləşdirilməsi üçün ekoloji ədliyyə sisteminin, o cümlədən, ekoloji polisin, təbiətimühafizə prokurorluğunun, ekoloji məhkəmələrin; digər ixtisaslaşdırılmış hüquqmühafizə orqanlarının yaradılması da faydalı olardı.

Həmin orqanların əsas vəzifələri ekoloji cinayətlərin və digər qanun pozuntularının qarşısını almaqdan; bu cür əməllərin səbəblərinin, şəraitinin və hallarının aşkar edilməsindən və aradan qaldırılmasından; bu cür hüquq pozuntularına qarşı mübarizə fəaliyyətini əlaqələndirməkdən ibarət olmalıdır [6, s. 119-120].

Cəmiyyətə zidd hallara, o cümlədən suların (su mənbələrinin) çirkləndirilməsinə qarşı mübarizənin ən mühüm formalarından biri profilaktik işlərdir. Bu sahədə cinayətlərə və xətalara qarşı mübarizə tədbirləri qısamüddətli tədbirlərdən ibarət ola bilməz. Bu tədbirlər sosial-iqtisadi, ideoloji, mənəvi-psixoloji və əlbəttə, cəmiyyətə zidd hadisələrə, onların səbəb və şəraitinə daim təsir göstərən hüquqi vasitələr kompleksindən ibarət olmalıdır.

Ümumiyyətlə, təbii resursların istifadəsinin ekoloji-iqtisadi dəyərləndirilməsi xüsusi yer tutur. O, ekoloji tarazlıq pozulduqdan sonra təbii potensialın düzgün hesabının aparılmasını tələb edir.

Ekoloji cinayət sosial münasibətlərin uyğunsuzluğunun təzahürü olan mürəkkəb sosial-hüquqi hadisə olduğundan ən çox yayılmış təhlükəli cinayətlər sırasındadır. Hazırda bütün dünyada ekoloji problemlərin kəskinləşməsi cəmiyyətin ətraf mühitə münasibətini xeyli dəyişdirmişdir. Cəmiyyət artıq başa düşür ki, təbiət onun mövcudluğu üçün həyati əhəmiyyətə malikdir və onu qorumaq lazımdır.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi, 2019. - 116 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, 2020 - 772 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. II Hissə / Hüquq elmləri doktoru, professor Firudin Yusif oğlu Səməndərovun redaktəsi ilə. Bakı, 2018-ci il, 800 s.
4. Cinayət Qanunları Külliyyatı (1920-2000). – Bakı: Hüquq Yayın Evi, 2014. -1184 s.
5. Hüseynov R.İ. Ekoloji cinayətlər: onların aradan qaldırılmasının hüquqi-sosial və fəlsəfi əsasları. - Bakı: Adiloğlu, 2001. - 119 s.
6. Qurbanov R.A. Cinayətkarlığa qarşı mübarizənin bəzi məsələləri. - Bakı: Nurlan, 2006. - 192 s.

7. Mövsümov F. Mansurov V. Kriminologiya və cinayətlərin profilaktikası. Dərs vəsaiti. – Bakı: Qanun, 2008. -200 s.

8. Mustafayev Ç. Cinayətkarlıq və Cəmiyyət. - Bakı: Azərnəşr, 2002. - 101 s.

9. Rəhimov İ.M.. Cinayət və cəzanın fəlsəfəsi. - Bakı: Şərq-Qərb, 2014. -320 s.

10. Səməndərov F.Y. Kriminologiya. - Bakı: Digesta nəşriyyatı, 2012. - 240 s.

11. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. – Bakı: Hüquq Yayın Evi, 2015. -750s.

12. Алекперов Х.Д., Расулов Р.И. Понятия и причины латентной преступности. - Баку, 1989.

13. Бурлаков В.Н., Сальников В.П., Степашин С.В. Криминология. – М, 1999

14. Дубовик О.Л., Жалинский Ф.Э.Причины экологических пресступлений. - М., 1988

15. Экологическая преступность в Европе / Ответственный редактор: Дубовик О. Л., Под общей редакцией: Комт Ф., Кремер Л. М.: Городец, 2010. - 352 с.

16. Тангиев Б.Б. Научный эколого-криминологический комплекс (НЭКК) по обеспечению экологической безопасности и противодействию экопреступности. - Санкт-Петербург: Издательство Юридический центр Пресс, 2010. 30 с.

17. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3852

18. Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqındaAzərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/39511

19. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3852

20. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/617

21. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46960

22. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/617

23. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda hüquqpozmalar// [Elektron resurs]. URL: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/crime_2025.pdf

24. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu// [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3852

25. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 25 dekabr 2023-cü il. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/62737

26. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/50013

***Məqalə daxil olmuşdur:*** *21 noyabr 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 dekabr 2025-ci il*

**References**

1. Constitution of the Republic of Azerbaijan. – Baku: Huquq Publishing House, 2019, 116 p. (in Azerbaijani).

2. Criminal Code of the Republic of Azerbaijan. – Baku: Huquq Publishing House, 2020, 772 p. (in Azerbaijani).

3. Commentary on the Criminal Code of the Republic of Azerbaijan. Part II / Edited by Doctor of Law, Prof. Firudin Yusif oglu Samandarov. Baku, 2018, 800 p. (in Azerbaijani).

4. Collection of Criminal Laws (1920-2000). – Baku: Huquq Publishing House, 2014, 1184 p. (in Azerbaijani).

5. Huseynov R.I. Environmental crimes: legal, social and philosophical foundations of their elimination. - Baku: Adiloglu Publ., 2001, 119 p. (in Azerbaijani).

6. Gurbanov R.A. Some issues of the fight against crime. - Baku: Nurlan Publ., 2006, 192 p. (in Azerbaijani).

7. Movsumov F. Mansurov V. Criminology and crime prevention. Textbook. – Baku: Qanun Publ., 2008, 200 p. (in Azerbaijani).

8. Mustafayev Ch. Crime and Society. - Baku: Azernashr Publ., 2002, 101 p. (in Azerbaijani).

9. Rahimov I.M.. Philosophy of crime and punishment. - Baku: Sharg-Garb Publ., 2014, 320 p. (in Azerbaijani).

10. Samandarov F.Y. Criminology. - Baku: Digesta Publishing House, 2012, 240 p. (in Azerbaijani).

11. Samandarov F.Y. Criminal law. General part. – Baku: Huquq Publishing House, 2015, 750 p. (in Azerbaijani).

12. Alekperov Kh.D., Rasulov R.I. Concepts and Causes of Latent Crime. - Baku, 1989. (in Russian).

13. Burlakov V.N., Salnikov V.P., Stepashin S.V. Criminology. - Moscow, 1999 (in Russian).

14. Dubovik O.L., Zhalinsky F.E. Causes of Environmental Crimes. - Moscow, 1988 (in Russian).

15. Environmental Crime in Europe / Editor-in-Chief: Dubovik O.L., General editors: Komt F., Kremer L. Moscow: Gorodets Publ., 2010, 352 p. (in Russian).

16. Tangiyev B.B. Scientific Ecological-Criminological Complex (SECCC) for Ensuring Environmental Safety and Combating Environmental Crime. - Saint Petersburg: Legal Center Press Pub., 2010, 30 p. (in Russian).

17. Law of the Republic of Azerbaijan on Environmental Protection. Available at: https://e-qanun.az/framework/3852 (in Azerbaijani).

18. Law of the Republic of Azerbaijan on Environmental Impact Assessment. Available at: https://e-qanun.az/framework/39511 (in Azerbaijani).

19. Law of the Republic of Azerbaijan on Environmental Protection. Available at: https://e-qanun.az/framework/3852 (in Azerbaijani).

20. Law of the Republic of Azerbaijan on Specially Protected Natural Areas and Objects. Available at: https://e-qanun.az/framework/617 (in Azerbaijani).

21. Code of Administrative Offenses of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46960 (in Azerbaijani).

22. Law of the Republic of Azerbaijan on Specially Protected Natural Areas and Objects. Available at: https://e-qanun.az/framework/617 (in Azerbaijani).

23. State Statistical Committee of the Republic of Azerbaijan. Crimes in Azerbaijan./ Available at: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/crime_2025.pdf (in Azerbaijani).

24. Law of the Republic of Azerbaijan on Environmental Protection./ Available at: https://e-qanun.az/framework/3852 (in Azerbaijani).

25. Decree of the President of the Republic of Azerbaijan on declaring 2024 the "Year of Solidarity for the Green World" in the Republic of Azerbaijan. December 25, 2023. Available at: https://president.az/az/articles/view/62737 (in Azerbaijani).

26. Decree of the President of the Republic of Azerbaijan of July 22, 2022 on approving the "Strategy of Socio-Economic Development of the Republic of Azerbaijan for 2022–2026". Available at: https://e-qanun.az/framework/50013 (in Azerbaijani).

***The article was submitted:*** *2025 November 21*
***Accepted for publication:*** *2025 December 12*

**Гусейнова С.У.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.38-51**
**УДК: 34: 343.2/.7**

## Экологические преступления: история развития и криминологические особенности

**Аннотация:** В исследовательской работе рассмотрены уголовно-правовые нормы, определяющие ответственность за экологические преступления, а также исследована история становления законодательной системы. Определено, что уголовное законодательство прошло сложный и трудный путь в борьбе с таким опасным преступным явлением, как экологическая преступность. Было установлено, что по сравнению с предыдущим уголовным законодательством, Уголовный кодекс Азербайджанской Республики, принятый 01 сентября 2000 года, определил совершенные составы преступных проявлений, связанных с экологическими преступлениями.

При этом, помимо Уголовного кодекса, в исследовании также были охвачены и другие законодательные акты, в том числе об уголовной ответственности за экологические преступления.

В исследовательской работе рассмотрены криминологическая характеристика экологической преступности, динамика ее количественных показателей, а также качественное положение на современном этапе. Изучены причины и условия экологических преступлений и их предупреждения, а также криминологическая характеристика лиц, совершивших эти преступления. Здесь высказаны достаточно четкие мнения о причинах и обстоятельствах преступ-

♦ **Гусейнова Севиндж Усуб кызы - –** доктор философии права, доцент, заведующая отделом электронных услуг, Институт востоковедения имени Зии Буньядова Национальной академии наук Азербайджана. E-mail: sevinchuseyn70@gmail.com

лений, личности преступника, демографических и психологических характеристиках личности.

**Ключевые слова:** экологические преступления, криминологическая характеристика, личность преступника, латентная преступность, экологическая безопасность, охрана окружающей среды, общественно опасное деяние, законодательные акты, экологическая ответственность, процессуальные экологические правоотношения

***Дата поступления:*** *21ноября 2025 г.*
***Дата принятия в печать:*** *12 декабря 2025 г.*